# Həyatın 93-cü anı

Kamil Seyid oğlu Məmmədov 18 avqust 1931-ci ildə Azərbaycanın ən gözəl guşələrindən biri olan Qəbələ (Qutqaşın) şəhərində anadan olmuşdur. 1951-ci ildə Qutqaşın 1 saylı orta məktəbi qızıl medalla bitirərək, Leninqrad Texnologiya İnstitutuna daxil olmuş, bu təhsil müəssisəsini mühəndis-mexanik ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

O, 1956-1958-ci illərdə Azərbaycan SSR Ərzaq Məhsulları Sənayesi nazirliyində baş mexanik, 1959-1962-ci illərdə Azərbaycan SSR Xalq Təsərrüfatı Komitəsində texniki şöbənin müdiri, 1962-1964-cü illərdə isə Bakı Biskvit Fabrikində baş mühəndis kimi çalışmışdır. O, 1964-1969-cu illərdə Azərbaycan SSR Nazirlər Kabinetində şöbə müdirinin müavini, 1970-1971-ci illərdə Ət-Süd Sənayesi nazirinin müavini, 1971-1972-ci illərdə Yeyinti Sənayesi nazirinin müavini, 1972-1985-ci illərdə isə Yeyinti Sənaye naziri vəzifələrində işləmişdir.

K. Məmmədov daha sonra - 1986-1990-cı illərdə Azərbaycan SSR Aqrar Sənaye Komitəsi sədrinin birinci müavini - Respublika naziri, 1991-1992-ci illərdə Kənd Təsərrüfatı nazirinin birinci müavini, 1993-1994-cü illərdə Yeyinti Sənaye şirkətinin vitse prezidenti kimi çalışmışdır. O, 1994-1996-cı



illərdə Taxıl Məhsulları Dövlət Şirkətinin Prezidenti, 1996-1999-cu illərdə Taxıl Agentliyinin Prezidenti olmuş, 1976, 1980 və 1985-ci illərdə isə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Fəaliyyət göstərdiyi dövrdə Gəncə, Bərdə, Salyan, Ağdam çörək zavodları, Naxçıvan Mineral Sular zavodu, Zaqatala, Şəki və Qəbələ Tütün Fermentasiya zavodları, Bakı Maya Kombinatı, Bakı Tütün Fabriki, Əli-Bayramlı Hidrogenezasiya zavodu, Bakı Çay və Biskvit fabriklərinin filialları tikilmişdir. Gəncə və Əli-Bayramlı Yağ-Piy



Kombinatlarının yenidənqurma işləri aparılmışdır. Zaqatala, Şəki, Qəbələ və Bərdədə yaşayış binaları, Yevlax, Balakən və Qəbələdə uşaq bağçaları, Qəbələdə stadion, Qəbələ və Bakıda istirahət zonaları, uşaq xəstəxanası tikilib istifadəyə verilmişdir.

Azərbaycanda Emal Sənaye müəssisələrinin istehsalat gücünün artırılması məqsədilə geniş yenidənqurma işlərinin aparılmasında, yeni müəssisələrin tikilməsində, 1994-1996-cı illərdə əhalinin çörəklə təminatında yaranmış olduqca ağır vəziyyətinin sabitləşdirilməsi işində xüsusi rolu olmuşdur.

Kamil Məmmədov Qırmızı Əmək Bayrağı ordeni, Azərbaycan Respublikasının Əməkdar mühəndisi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə mükafatlandırılmışdır.

"Yaşadıqlarım" (Bakı - 2015), "Müraciət" (Bakı - 2019) kitablarının müəllifidir. Bu kitablarda onun keçdiyi mənalı ömür yolundan, Azərbaycanın xoş sabahı naminə gördüyü işlərdən söhbət açılır. Bir sözlə, yaşadığı həyatın hər bir anı bu kitablarda qələmə alınmışdır.

Hazırda bu kitablar bir ömrün tarixçəsi olmaqla, gənc nəsillər üçün bir həyat dərsliyi, həyat məktəbidir. Bu kitabları oxuyan hər bir insan halal zəhmətin, əməksevərliyin, vətənpərvərliyin nümunəsini, həyatda ucalmağın, şərəf və hörmətə nail olmağın yollarını, sonunda uca Allahın mükafatına layiq olmağı öyrənir. Halal zəhmətlə başlanan yolun yolçusu olmaq, bu yolu ləyaqətlə başa vurmaq, gələcək nəsillərə böyük irs qoymaq, böyük hünər tələb edir. Kamil Məmmədov da zəhmətlə başlanan tale yollarında çətinlikləri dəf edərək, şərəflə irəlilədi, irəlilədikcə arxasınca zirvələrə doğru geniş uğurlu aydın bir yol açdı.

Xalqımızın böyük ziyalısı, el ağsaqqalı, gözəl ata, qayğıkeş baba - Kamil müəllimin bu ilin 18 avqustunda 93 yaşı qeyd edildi. Ona sağlam və uzun ömür arzulayırıq.

**Fərman ƏZİZLİ,**
**Qəbələ Ağsaqqallar şurasının üzvü.**

# Kənd təsərrüfatı işçilərinin peşə bayramı

Kənd Təsərrüfatı İşçiləri Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətinin, Dövlət Aqrar İnkişaf Mərkəzinin, kənd təsərrüfatı subyektlərinin nümayəndələri və fermerlər Azərbaycan dövlətinin qurucusu və memarı, ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək, dahi şəxsiyyətə öz dərin hörmət və ehtiramlarını bildirmişlər.

# Qanunsuz tikinti işlərinin qarşısı alınmışdır



Rayon icra hakimiyyətinin, rayon polis şöbəsinin, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzi və digər aidiyyəti qurumların əməkdaşları tərəfindən rayon ərazisində özbaşına tikililərin qarşısının alınması məqsədilə monitorinqlər davam etdirilir. 19 noyabr 2024-cü il tarixdə keçirilən növbəti monitorinq zamanı Qəbələ şəhəri Həzi Aslanov küçəsində avtomobillərin parklanması üçün ayrılmış ərazidə özbaşına tikilmiş tikinti aşkar edilmiş, söküntü işləri aparılaraq ərazi boşaldılmışdır.

# "Mədəni nümunələrlə canlı təbiətin harmoniyası" adlı tədbir



27 noyabr 2024-cü il tarixində Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Mədəni nümunələrlə canlı təbiətin harmoniyası" mövzusunda tədbir keçirilib. Tədbirin keçirilməsində əsas məqsəd Qəbələnin 2500 illik tarixi, arxeoloji tədqiqatlar nəticəsində əldə olunan maddi-mədəni nümunələrdə təbii rənglərdən istifadə, təbiətin təsviri, o cümlədən qədim məişət avadanlıqlarının əldə edilməsi proseslərinin inkişaf mərhələsinin öyrənilməsi olmuşdur. Tədbir çərçivəsində muzeyin fondunda mühafizə olunan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmiş misgərlik, dulusçuluq, toxuculuq sənətinin nümunələrindən ibarət video material nümayiş etdirilmişdir.

# Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi

Tarixin hər üzündə xalqımız düşmən üzərində qələbə çalmış, qanı ilə şanlı səhifələr yazmışdır. Ulu babalardan əmanət olan Azərbaycan torpağının hər qarışını gözü kimi qoruyan xalqımız vətən torpaqlarının müdafiəsi naminə bu yolda candan keçdi. Büdrədik, amma yıxılmadıq, əzmək istədilər, amma həmin anda bir yumruq olaraq düşmənə anındaca zərbəni endirdik. Dövlətimizin rəhbəri ilə bir yerdə eyni amala, istəyə, fikrə sahib oldu xalqımız. Bütün bunlar bizləri daim irəli apardı, bu birləşmə daha da güclü etdi və sonunda haqlı qələbəni əldə etdik. Çünki vətən sevgisinin güçü, şəhid qanlarının müqəddəsliyi və ən əsası xalq hakimiyyət birliyi İkinci Qarabağ müharibəsində Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan xalqı hər zaman böyük humanizmi, əbədi vətən sevgisi, rəhbərinə ehtiram və inam hissi və apardığı daxili-xarici siyasətin tam dəqiqliyinə əminliyi ilə bu qələbəni əldə etdi. Müqəddəs şəhid ruhları qarşısında olan hər bir vətəndaşın mənəvi borcu, ehtiram hissləri və ən başlıcası xalq - hakimiyyət, hakimiyyət - xalq birliyi böyük qələbələrə geniş yol açdı. Bu cür vəhdət böyük xariqələr yaratdı, bizi mənən böyütdü, vüqarımızı, gücümüzü, qüdrətimizi artırdı və müqəddəs bayrağmızın Qarabağ torpaqlarında əbədi dalğalanması üçün güc verdi. Bütün bunlar bunu bir daha dünyaya sübut etdi ki, qədim tarixə malik olan Azərbaycan xalqı hər bir təhlükəli anda rəhbərinə sadiqdir, inam və etibarı güclüdür, vətən sevgisi hər bir hissdən öndədir.

30 illik Qarabağ həsrətinə 44 günün içərisində son qoyan böyük xalq -hakimiyyət birliyi və müzəffər Azərbaycan Ordusunun rəşadəti, gücü dünyaya bəyan oldu. Bütün bu sevgi, istək və amalların üst-üstə düşməsi və ən nəhayət böyük birləşməmiz bizi bir daha yüksəltdi, bir xalq olaraq əbədi qələbəni əldə etməyimizə zəmin yaratdı. Azərbaycan tam haqlı qələbəni əldə etdi və bu belə də olmalı idi. Çünki ölkədaxili proseslər, xalqın səfərbərliyi, rəhbər ətrafında yumruq kimi sıx birləşmə öncədən bunları əldə etməyimizə böyük inam hissi yaratmışdı. Bütün bunlar hərbi qüdrətimizi, qəhrəman xalq kimi gücümüzü və haqq-ədalətin qalib olduğunu göstərdi. Döyüş meydanında hünər və şücaət göstərən Azərbaycan ordusu Şəhidlərimizin qisasını döyüş meydanında aldı. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi, lakin 30 illik yolu Azərbaycan ordusu 44 günün içərisində uğurla başa vurdu. Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında tam təmin etdi. Daxili birliyimiz qürur hissimizi daha da artırdı, gücümüzü dünyaya nümayiş etdirdi. Tarixi qələbəni əldə edən Azərbaycan böyük nailliyyətə sahib oldu. Qədim ulu keçmişə malik olan Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır.

44 günün içərisində bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib layiqli cavab verdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Ən başlıcası bir xalq olaraq birləşərək haqqlı qələbəni əldə etdik, tariximizin ən parlaq və şanlı səhifəsini yazdıq.

**İlhamə SEYİDOVA,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Uğur yollarında

Bəhreynin paytaxtı Manama şəhərində 26 idman növü üzrə gimnaziada yarışları keçirilmişdir. Bu Beynəlxalq yarışlarda Azərbaycan Milli komandasının tərkibində Qəbələ rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin məşqçi-müəllimi Fərid Mustafayevin yetirməsi olan Mirzəbəyli kənd tam orta məktəbinin şagirdi Rəşad Veysəlov U-17 yaş qrupunda 71 kq çəki dərəcəsində uğurla çıxış etmiş və ili yeri qazanmışdır.

Bəhreyn Krallığının Manama şəhərində Bəhreyn-2024 Gimnaziada İdman Oyunlarında güləş idman növü üzrə bürünc medal mükafatçısı Qəbələ rayonu İ. Kərimov adına Mirzəbəyli kənd tam orta məktəbin XI sinif şagirdi Rəşad Veysəlov və Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin məşqçi-müəllimi Fərid Mustafayevlə görüş keçirilib.

Görüşdə idman sahəsində yüksək nəticə əldə etdiyinə görə Rəşad Veysəlova təhsil sektorunun müdiri Arifə Bayramova tərəfindən hədiyyə təqdim edilib.

